

# KÖNÜL HÜSEYN

## AYRILIQ QORXUSU

Ayrılığın qara olur gözləri,
Elə baxır qorxu düşür canına.
Dinərək yox, səssiz deyir sözləri,
Səssizliyi buztək hopur qanına.

Ayrılığın ağır olur yanğısı,
Heç bir məlhəm ovundurmur yaranı.
Hələ bunun hər gün ürək ağrısı,
Ruh əzabı rahat qoymur adamı.

Ayrılığın qara olur gözləri,
Qarasında bütün dünyan qaralır.
Ömür boyu sızıldayır közləri,
Közlərinin külündən dağ yaranır.

Ayrılığın ağır olur nəfəsi,
Yavaş-yavaş, zərrə-zərrə bitirsən.
Ürəyinə dar gəlir döş qəfəsi,
Qəfəsində xəstə quşa dönürsən.

Ayrılığın çox qorxuncdur gülüşü,
Səs-küyündən lap lərzəyə gələrsən.
Ya əyilər ayrılığın önündə,
Ya dik durub ayrılığa gülərsən...

## DƏLİ

Gedənin kölgəsi yolunda qalar,
Getmisən, xəyalın üstümü alıb.
Deyirlər, gecələr kölgə yox olar,
Gecə yox olmursan, ölürəm axı.

Yumuram gözümü xəyala dalıb,
Mən səni lap canlı bilirəm orda.
Dörd bir tərəfini gül-çiçək alıb,
Əynində ağ libas görürəm axı.

Yanına qaçıram görüncə səni,
Tez gəlib əlindən tuturam bərk-bərk.
Daha qoyub getmə deyirəm məni,
Səninlə mən evə dönürəm axı.

Dururam sevincək yerimdən qalxıb,
Yuxumda dedin get, mən də gəlirəm.
Günlərdir ümidsiz yollara baxıb
Tükənən bir şamtək sönürəm axı.

Sıxılıb bir küncə şəklin əlimdə,
Səninlə danışıb söhbət edirəm.
Dəli olmuşam mən, deyəsən, həm də,
Yasını tutmaqdan gülürəm axı...

## İNSANLAR

İnsanlığın üzünə həsrət,
İnsanlar dünyanın düzünə həsrət -
Elə bir dövrana gəlib çıxmışıq,
Qalmışıq doğruluq sözünə həsrət.

İnsanlar əzəldən deyildi belə,
Sevginin yerini alıbdı nifrət -
Gör artıq nə qədər ucuzlaşmışıq,
Baxıb öyrənirik kafirdən ədəb.

Cahillik dünyada baş alıb gedir,
Dərk etmək çətindi çoxuna, əlbət -
Dünya insanlığın üzünə həsrət,
İnsanlar dünyanın düzünə həsrət.

Ey insan, doğuşdan öncəni düşün:
Bir qan laxtasıydın, əvvəlin şəhvət -
Sonrada cisminə ruh üfürən O
Dünyaya bəxş etdi səni bir mələk.

Sən mələk gəlmişdin dünyaya, fəqət
Səni öz qoynuna aldı cəhalət -
Doldu ürəyinə kin, qəzəb, nifrət,
İnsanlıqdan qaldı sadəcə surət.

Harama meyl edib alanda ləzzət
Yox oldu əqidə, həya, ar, iffət -
Bircə çıxış yolu düşünürəm mən:
Dağılsın kainat, qopsun qiyamət!